# Avropa Şurası Azərbaycanda korrupsiyaya qarşı mübarizə imkanlarını gücləndirmək məqsədi ilə layihənin icrasına başlayır

Strasburq, 4.12.2007 – Avropa Şurası, Cənubi Qafqazda özünün əməkdaşlıq proqramının bir hissəsi kimi, "Azərbaycanda Korrupsiyaya qarşı Mübarizə Strategiyasına Dəstək" ( AZPAC) adlı yeni texniki əməkdaşlıq layihəsinin icrasına başlayır. İki il üçün nəzərdə tutulan bu layihə həmçinin Şuranın nəzdində olan korrupsiyaya qarşı dövlətlər qrupunun (GRECO) Azərbaycana təklif etdikləri tövsiyələrin həyata keçməsinə yardım edəcək. Layihə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) könüllü ianəsi ilə maliyyələşdirilir.

Layihə dörd əsas sahə üzərində diqqəti cəmləşdirir: GRECO-nun tövsiyələri və qabaqcıl iş təcrübəsinə uyğun olaraq, korrupsiyaya qarşı strateji mübarizənin çərçivəsini gücləndirmək; korrupsiyanın qarşısını alınmağına yönəldilmiş qanun və diqər hüquqi normativ aktları ətraflı işləyib hazırlamaq və təkmilləşdirmək; maliyyə sistemindən pul vəsaitlərinin yuyulması və terrorizmə maliyyə dəstəyi verilməsi məqsədi ilə istifadə edilməsinin qarşısını almaqdan ötrü şəbəkə və sistem yaratmaq; və nəhayət, mikro sistemi öyrənmək, etik davranış kodekslərinin səmərəli tətbiqinin institusionallaşdırılması və dövlət qulluğu sahəsində maraqlar toqquşmasına nəzarət etməklə korrupsiyanın qarşısının alınması imkanlarını gücləndirmək. **AZPAC Layihəsinin təqdimat mərasimi saat 10:00-dan 12:20-dək, 10 Dekabr 2007-ci il Bakı şəhərində Hyatt Regency Mehmanxanasında keçiriləcək. Mətbuat işçiləri təqdimat mərasiminin açılışında saat 10:00-dan 10:45-dək iştirak etmək üçün dəvət olunurlar.**

Daha ətraflı məlumat üçün : www.coe.int/economiccrime

Mətbuatla bağlı hər hansı sual və xahişinizi cavablandırmaq üçün Avropa Şurasının Baş Katibinin Xüsusi Nümayəndəsinin Bakıdakı Ofisinə müraciət etməyinizi xahiş edirik:
tel. +994 124 975 489